**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 274/6** **11 mart 2016-cı il**

**2015-ci il üzrə fəaliyyətlərinə dair hesabatı gec təqdim edən Auditorlar Palatasının üzvləri barədə**

Auditorlar Palatası Şurasının 2015-ci il 30 sentyabr tarixli 266/3 saylı qərarı ilə təsdiq edilmiş "Sərbəst auditorların, auditor təşkilatlarının və xarici auditor təşkilatlarının filiallarının (və ya nümayəndəliklərinin) fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat formasına və ona əlavəyə dəyişiklik edilməsinə dair Təlimat"a uyğun olaraq, 2015-ci ilin yekunu üzrə fəaliyyətlərinə dair hesabatı gec təqdim edən auditor təşkilatı və sərbəst auditorlar barədə Analitik informasiya və təhlil şöbəsinin müdiri R.Cəfərlinin məlumatını dinləyərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2015-ci ilin yekunu üzrə fəaliyyətlərinə dair hesabatı 15 günədək gec təqdim edən auditor təşkilatlarının – "AZAUDİT" MMC (direktor - İsrəfilov Afiq Tofiq oğlu), "Nexia EA" MMC (direktor – Haqverdiyev Həsən Yaşar oğlu), "M & J" MMC (direktor – Cəfərov Elçin Əhməd oğlu), "RSM Azerbaijan" MMC (direktor – Məhərrəmov Tural Musa oğlu), "RR – VAM Beynəlxalq Audit Konsaltinq" MMC (direktor – Qurbanov Abbasəli Şükür oğlu), "F.N.Audit Servis" MMC (direktor – Əliyev Fuad Eyyub oğlu), "BKR İşık Konsaltinq" MMC (direktor Əliyev Elvin Elçin oğlu) rəhbərlərinin nəzərinə çatdırılsın.

2. 2015-ci ilin yekunu üzrə fəaliyyətlərinə dair hesabatı 15 gündən 30 günədək gec təqdim edən auditor təşkilatlarının – "BDO Azərbaycan" MMC (direktor – Salayev Yunis Elxan oğlu), "Grant Thornton" MMC-nin Azərbaycan Respublikasındakı filialı (direktor - Farouk Mohamed) rəhbərlərinə və sərbəst auditorlar – Həsənov Ülvi Dilqəm oğluna, Qurbanlı Ziya Tofiq oğluna və Sadıqov Musa Sərxan oğluna ciddi xəbərdarlıq edilsin.

3. Qərarın icrası və yuxarıda adları sadalanan auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların qərarla tanış olmalarının təmin edilməsi Analitik informasiya və təhlil şöbəsinin müdiri R.Cəfərliyə həvalə edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**